# 20 Yanvar faciəsinin 35-ci ildönümünə həsr olunmuş videoçarxlar hazırlanıb

*Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Yasamal Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) M.Ş.Vazeh adına Mərkəzi Kitabxanasında 20 Yanvar Ümumxalq Hüzn Gününə həsr olunmuş videoçarxlar hazırlanıb.*




Mərkəzi Kitabxananın İnformasiya-resurs şöbəsinin müdiri Təranə Heydərova və Metodika və biblioqrafiya şöbəsinin müdiri Aysel Həsənovanın hazırladıqları "20 Yanvar - Ümumxalq Hüzn Günü" adlı videoçarxda bildirilir ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə M.Qorbaçovun əmri ilə hərbi qoşun hissələrinin Bakıya yeridilməsi nəticəsində dinc əhali ağır texnikadan və müxtəlif tipli silahlardan atəşə tutularaq kütləvi qətlə yetirildi. Bakıda və ətraf rayonlarda 131 nəfər öldürüldü, 744 nəfər yaralandı. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, təcili yardım işçiləri olmuşdur.

Videoçarxda Xalq şairi Bəxtiyar Vahabzadənin "Şəhidlər" şeiri də yer alır.

İkinci videoçarxda kitabxananın Fəxri oxucularının 20 Yanvar - Ümumxalq Hüzn Gününə həsr etdikləri əsərləri oxuculara təqdim olunur. Videoçarxlar Mərkəzi Kitabxananın "YouTube" kanalında nümayiş olunur.

**"Respublika".**

Respublika.- 2025.- 17 yanvar (№ 10).- S.6.